and education aimed to elevate the prestige of the teaching profession and strengthen the enlightenment movement in society.

**Key words:** enlightenment, "Akinchi", teacher, education, school, upbringing.

## СИЛА, КОТОРАЯ ВОЗВЫШАЕТ НАЦИИ В «ЭКИНЧИ»: УЧИТЕЛЬ И ОБРАЗОВАНИЕ

**Гюльнара Мамедзаде**
*Азербайджанский государственный педагогический университет*

**Резюме**

В газете «Экинчи» Гасан-бек Зардаби уделял особое внимание важной роли учителей в обществе. Он подчёркивал, что образование является главным условием развития народа, и считал учителей творцами этого развития. В статьях пропагандировались идеи просвещения, отмечалась большая ответственность учителей в распространении научных знаний и борьбе с предрассудками. Зардаби также критиковал недостатки системы образования и отстаивал важность преподавания на родном языке. Эти статьи способствовали повышению престижа профессии учителя и укреплению просветительского движения в обществе.

**Ключевые слова:** просвещение, «Экинчи», учитель, образование, школа, обучение.

### Giriş/Introduction

XIX əsrin ikinci yarısı Azərbaycanın ictimai-mədəni həyatında dönüş nöqtəsi sayılır. Bu dövrdə maarifçilik ideyaları geniş vüsət aldı və bu ideyaların daşıyıcısı kimi çıxış edən ilk milli mətbu orqan – "Əkinçi" qəzeti meydana çıxdı. 1875-ci ildə Həsən bəy Zərdabi tərəfindən təsis edilən bu qəzet təkcə xəbər vasitəsi deyil, həm də maarifçilik hərəkatının canlı tribunası idi. "Əkinçi"nin əsas məqsədi xalqı ayıltmaq, onu cəhalətdən, qaranlıqdan çıxarıb, elm və biliklə işıqlanmağa təşviq etmək idi.

Qəzetin əsas ideoloji dayaqlarından biri müəllim və təhsil məsələsi idi. "Əkinçi" səhifələrində müəllimlər təkcə bilik ötürən şəxs deyil, həm də bir xalqın intellektual və mənəvi inkişafını təmin edən maarif savaşçıları kimi təqdim olunurdu. "Bir millətin tərəqqisinin əsası məktəb və müəllimlə başlanır" ideyasi qəzetin fəaliyyəti boyu dəfələrlə vurğulanırdı.

Tarixən müstəmləkə zülmü və dini fanatizmlə mübarizə aparan Zərdabi və

onun silahdaşları üçün təhsil xalqın dirçəlişində yeganə çıxış yolu idi. Ona görə də “Əkinçi” maarifçilik ideyalarını sadəcə yaymır, onları həm də praktik fəaliyyətə çevirir, müəllimlik peşəsinin cəmiyyətdəki nüfuzunu artırmağa, məktəbə münasibəti dəyişməyə çalışırdı.

**“Əkinçi” və maarifçilik hərəkatı.** Nəşri XIX əsrin 70-ci illərinə təsadüf edən “Əkinçi” Qafqazda və bütövlükdə Rusiya imperiyası ərazisində baş verən sosial-siyasi dəyişikliklər fonunda xalqa təqdim olunurdu. Çar Rusiyasının tərkibində yaşayan müsəlman xalqları, o cümlədən azərbaycanlılar savadsızlıq, dini fanatizm və sosial ədalətsizlik kimi dərin problemlərlə qarşı-qarşıya idi. Belə bir şəraitdə xalqı ayıltmaq, onu elmə, inkişafa yönəltmək üçün ictimai maarifçilik vacib amilə çevrilmişdi.

Qəzetin banisi və baş redaktoru Həsən bəy Zərdabi xalq maarifçiliyinin ideoloqu kimi çıxış edirdi. Qəzetin ilk nömrəsində o yazırdı: “Bizim məqsədimiz xalqı oyatmaq, ona elm və sənət öyrətmək, savadsızlıqdan xilas etməkdir”. Maarifçilik Zərdabi üçün sadəcə ideya deyil, həm də fəaliyyət istiqaməti idi. Onun fikrincə, millətin dirçəlişi təhsildən, bilikdən, müəllimlərin fəaliyyətindən başlayır, təhsil ayrı-ayrı fərdlərə deyil, ümummilli tərəqqiyə xidmət etməlidir.

N.Abdullazadə yazır: “*Məramı təhsillənmə, savadlanma olan qəzetin nəşr edildiyi illər Azərbaycanda dünyəvi məktəblərin geniş fəaliyyət göstərdiyi bir dövrə təsadüf edirdi. Yeni açılmış “üsuli-cədid” məktəblərində təlim ana dilində aparılır, Avropada və Rusiyada təhsil görmüş milli ziyalılar nəsli yetişir, milli məktəblərlə yanaşı, ruhani məktəbləri – mədrəsələr də təhsil verirdi. Rus dilinin tədris olunduğu məktəblərdə Azərbaycan dili icbari dil kimi keçilir, şagirdlərə qarşı tətbiq edilən cəza üsulları hələ də qalırdı. “Əkinçi” məktəblərdəki pedaqoji prosesə qayğı ilə yanaşır, azərbaycanlı balalarının təhsillənməsi yolunda yaranan maneələri görür və buna münasibətini bildirməkdən çəkinmirdi. “Məktubat”lardan birində məktəblərdəki tədris üsulları, fənlərin tədrisi, müəllim və şagird münasibətləri məsələləri qoyulurdu. Mövcud məktəblərdə təlim-tərbiyənin pedaqoji prinsiplərə uyğun qurulmadığı, uşaqlara qarşı tətbiq edilən cəza tədbirləri, öyrədilən dərs nümunələrinin düzgün seçiminə və s. məsələlərə tənqidi münasibət qəzetin səhifələrində əksini tapırdı”* [Abdullazadə, 2023:85]. “Əkinçi” qəzetində müəllim və təhsil məsələlərinin yalnız maarifçilik çərçivəsində deyil, həm də milli kimlik kontekstində təqdim edilməsi onun ən böyük xidmətlərindən biri sayılır. Zərdabi və onun ətrafındakı ziyalılar başa düşürdülər ki, təhsilin inkişafı təkcə fərdi rifah və savad demək deyil, həm də bir millətin gələcəyinin təminatıdır.

"*Müasir görüşlərin, demokratik ideyaların, yeni pedaqoji meyillərin təbliği qəzetin səhifələrində məktəb, maarif, təlim-təhsil məsələləri ətrafında açılmış müzakirə və mübahisədə də əsas xətt idi. Bizə "elmi-əbdan"mı (dünyəvi, təbiət elmləri) ya "elmi-ədyan" (dini-sxolastk elmlər) lazımdır? – sualına cavabında bunlardan ikincisinə üstünlük verən köhnəpərəstlərdən, müsəlman ruhaniləri və üləmasından fərqli olaraq, tərəqqipərvər ziyalılar cəmiyyətin maddi və mənəvi inkişafını XIX əsrdə böyük nailiyyətlər əldə etmiş dünyəvi-texniki elmlərlə, təbiətşünaslıqla, qabaqcıl ictimai biliklərlə bağlayır, yeni üsulda tədris ocaqları, sənət məktəbləri açılmasını zəruri sayırdılar*" [Mirəhmədov, 2005:17]. Bu baxımdan qəzetin yazılarında milli şüurun formalaşmasında təhsilin rolu xüsusi vurğulanırdı. 20 sentyabr tarixli nəşrində qəzet yazırdı: "*Bizim zəmanəmiz dəyişilib, biz elm sahiblərinə rast gəlmişik. Bizim ilə zindəganlıq cəngi edən millətlər elm təhsil ediblər. Ona binaən gərək biz də elm təhsil edək ki, onlara zindəganlıq cəngində qalib olmasaq da, onların bərabərində dayanıb duraq, yoxsa dövlət və xoşgüzəranlıq onların əlinə gedəcəkdir və bizlər mürur ilə zindəganlıq cəngində məğlub olub tələf olacayıq. ...Səy et, zəhmət çək, elm təhsil elə ki, dövlət qazanıb xoşgüzəran olasan*" [Əkinçi, 2005:59]. Digər millətlərlə müqayisədə milətinin geriliyinin, avamlığının səbəbini gözəl bilən Zərdabi onu bu qəflətdən qurtarmaq yolunu elmdə, təhsildə görürdü. Qəzetdə gedən yazılar həmçinin göstərirdi ki, ana dilində təhsil vacibdir; xalq öz ana dilində oxumalı və yazmalıdır. Bu fikir təkcə maarifçilik deyil, həm də millilik ideyasının ifadəsi idi. Ana dilində dərslərin keçirilməsi və yerli müəllimlərin hazırlanması məsələsi də bu kontekstdə daim müzakirə olunurdu.

**"Əkinçi" səhifələrində müəllim və məktəb mövzusuna baxış.** "Əkinçi"nin maarifçilik xəttində müəllim obrazı xüsusi ideoloji və simvolik məna daşıyırdı. Qəzetdə müəllim sadəcə dərs deyən şəxs yox, cəmiyyətin mənəvi-əxlaqi dirçəlişinə yön verən, xalqın düşüncəsinə işıq salan şəxsiyyət kimi təqdim edilirdi. Yazılarda müəllimlərin savadlı, vətənpərvər, vicdanlı və qabaqcıl düşüncəli olması vacib şərt kimi göstərilirdi.

Qəzetdəki məqalələrdə tez-tez aşağıdakı suallar ön plana çıxırdı:

* Müəllim kimdir?

* Müəllim yalnız oxutmaqla kifayətlənməlidir, yoxsa tərbiyəvi işlərdə də nümunə olmalıdır?

* Cəmiyyət müəllimi necə qəbul edir?

Həsən bəy Zərdabiyə görə, müəllim "xalqın ağlı" olmalı idi. Onun fikrincə, cəmiyyətin təhsilə münasibətini dəyişmək üçün əvvəlcə müəllimin

nüfuzunu yüksəltmək lazımdır. Qəzetin fəal müxbirlərindən olan Nəcəf bəy Vəzirovun məktubunda dövrün məktəblərində çalışan müəllimlərin müasir elmlərdən bixəbər olduqları, uşaqlarla "əti sənin, sümüyü mənim" prinsipinə görə rəftar etdikləri, uşaqlara "Leyli-Məcnun"dan, Hafizdən qeyri bir şey öyrətmədikləri acı-acı dilə gəlir. Publisist-yazıçı müəllimlərin uşaqlara öyrətdiyi bədii qiraət nümunələrinin onların zövqünə, yaşına, dünyagörüşünə uyğun olmadığını xatırladır: "*İndi kitab və müəllimlərdən bir neçə kəlmə danışaq. Biz məktəbxanada oxunan "Leyli-Məcnun", Hafiz və qeyri uşaq kitabı deyil. Onları ki böyük oxuyanda şura gəlir, uşaq başına nə kül töksün, onalrı oxuyub eşqbaz, cür'əkeş olmasın və bir də bizi oxudanda məhz oxuyub yazmağı öyrədirdilər və dəxi səy edən yoxdur ki, bir xeyri olan şey də öyrətsin. Məsələn, Məcnun elədiyi qələti oxudunca elmi-coğrafia kitabı oxusaq, həm yazıb-oxumağı öyrənnik, həmi dünya üzündə olan vilayətlərdən xəbərdar olarıq*" [Əkinçi, 2005:292].

"Əkinçi" bu ideyanı təbliğ etməklə yanaşı, konkret nümunələr və sosial çağırışlarla da çıxış edirdi. Məsələn, bəzi məqalələrdə kənd müəllimlərinin ictimai nüfuzu, aldıqları maaş, tədris metodları barədə təhlillər aparılırdı. Müəllimin səriştəliliyi, peşə etikası, müəllim sənətinin sirləri, öyrətmə üsulları barədə Əsgər ağa Görani yazırdı: "*Müəllim bir sənətkar babadır öz sənətilə qeyri sənətkar kimi dolanır, yəni öz bildiyini uşaqların valideyninə satıb zindəganlıq edir. ....Hər kəs xəyal edirsə ki, bizim indiki müəllimlər birdən-birə başlayıb təzə qayda ilə təlim edəcək, nahaq fikrə düşüblər. Onlar nə qədər qabiliyyətli olalar və nə qədər xahiş də edələr, bunu edə bilməzlər. Ona binaən ki, onların bu təzə qaydadan əsla xəbərləri yoxdur. Pəs bir camaat xahiş etsə ki, uşaqlara təzə qayda ilə təlim olunsun, ol vaxtda gərək bizim gimnaziyada ya uyezdni uşkolada oxumuş kəslərdən müəllim etsin, yəqin ki, bizim indiki müəllimlər 4 ilə öyrətdiyini bunlar bir ilə öyrədəcək. ...Təlim etmək asan deyil, bu özü elmdir ki, Avropa əhli ona elmi-pərvəriş deyir*" [Əkinçi, 2005:414].

Məktəbin təkcə elm öyrədən deyil, həm də milli kimliyi formalaşdıran ocaq olması düşüncəsi "Əkinçi"nin əsas ideoloji xəttində dayanırdı. Zərdabi məktəblərdə dini fanatizm və quru əzbərçiliyin yerinə, təbiət elmlərinin, dil və tarix biliklərinin öyrədilməsini zəruri sayırdı. Onun fikrincə, məktəblər xalqın gələcəyinin planlandığı mərkəzlər olmalı idi. Qəzetdə mütəmadi olaraq ölkənin müxtəlif yerlərində açılan məktəbləri o alqışlayır, Rusiyada açılan məktəblərlə müqayisə edirdi. Rusiyanın universitet, gimnaziya və məktəblərində ildən-ilə oxuyanların sayının artması maarifpərvər ədibi narahat edir, Bakıda hər hansı bir məktəbin açıldığını sevinclə bəyan edirdi: "*Biz eşitdik ki, Badkubə uyezdinin*

*Sabunçu kəndinin camaatı istəyir öz kəndlərində rus məktəbxanası bina etsin. Allah eləsin ol xeyir iş başa gəlsin və bir yaxşı müsəlman müəllimi ol məktəbxana üçün tapılsın*" [Əkinçi, 2005:72] yaxud "*Gələn il Qazan şəhərində müsəlmanları oxutmaq üçün müəllimxana açılacaqdır. Yəni ol müəllimxanada oxuyanları müsəlman məktəbxanalarına müəllim təyin edəcəkdirlər*" [Əkinçi, 2005:103].

Qəzetin 27 may 1876-cı il buraxılışında Zərdabi Qafqazda açılan məktəblərdə rus dilinin tədrisi, erməni ruhanilərinin kilsələrinin yanında olan məktəbxanalarda ancaq ruhanilik öyrənməyi tələb etdiklərini, müsəlman məscidlərinin yanındakı məktəblərdə isə rus dilinin tədris olunacağını və bu məktəblərə çinovniklər təyin olunduğu, müsəlman məktəblərində dərs demək üçün xüsusi məktəblər açılacağı və müsəlmanların öz uşaqlarını öz xərcilə oxutmalarına münasibət bildirilirdi.

Məktəblərdə tədrisin hansı dildə aparılması, kimlərin tədris alması məsələsinə Zərdabi biganə qala bilmir, Qafqazda açılan məktəblərdə qeyri-millətlərdən olanların oxuması onu narahat edirdi. Bakıda yaşayan əhalinin rus-erməni tərkibinin nisbətdə on dəfə az olmasına baxmayaraq, gimnaziyada oxuyan 500 nəfərdən 250 rus, 150 erməni, 100-nün müsəlman olduğunu ədib elmə biganəlik sayırdı. "*Pəs bizim məktəbxanalarımızda oxuyanlar rus, erməni və qeyri millətlərdir. Biz müsəlmanlar elmdən vəba naxoşluğundan qaçan kimi qaçırıq, hətta padşahlıq xərci ilə də oxumaq istəmirik. Məsələn, Dağısrtan müsəlmanlarından Badkubə gimnaziyasında gərək 15 padşahlıq xərcilə oxuyan olsun, amma müsəlmanlar oxumaq istəmədiyinə onlardan ancaq 13 müsəlman oxuyur, ikisinin əvəzində rus uşaqları oxuyurlar. Belə olan surətdə biz müsəlmanlar elm təhsil etməkdən, yəni zindəganlıq cənginin əsasını ələ gətirməkdən qaçmaqlığa görə ol cəngdə məğlub olub mürur ilə tələf olacayıq*" [Əkinçi, 2005:82].

**Nəticə/Conclusion**

"Əkinçi" Azərbaycanın maarifçilik tarixində bir yolayrıcı oldu. Onun səhifələrində gedən müəllim və təhsilə dair yazılar yalnız dövrün sosial problemlərinə işıq tutmurdu, həm də gələcəyə yönələn ideoloji və mənəvi proqram xarakteri daşıyırdı. Həsən bəy Zərdabi və onun silahdaşları başa düşürdülər ki, millətin tərəqqisi məktəbdən, müəllimdən, təhsilin sistemli şəkildə inkişafından keçir. Zərdabinin və həmfikirlərinin 150 il əvvəl irəli sürdükləri "Elm gücdür, müəllim yol göstərən, məktəb isə gələcəyə açılan qapıdır" ideyası müasir dövrdə təhsil sistemində baş verən dəyişiklikləri, texnologiyaların inkişafını, müəllimin və məktəbin cəmiyyətdəki rolunu

təsdiqləyir. "Əkinçi"nin publisistik irsi isə bir daha göstərdi ki, xalqı ucaldan, milləti ayaqda saxlayan ən böyük güc elm, bilik və bunları yayan müəllimlərdir. Tarixin dərinliklərindən gələn bu səs bu gün də bizə maarifləndirmənin, təhsilin və müəllimlik peşəsinin müqəddəsliyini xatırladır.

## ƏDƏBİYYAT/REFERENCES

1. Abdullazadə, N. (2020). "Əkinçi" qəzeti və Azərbaycan ədəbiyyatının tədrisi məsələləri //3 Uluslararasi Dede Korkut Türk kültürü, Tarihi ve edebiyatı Kongresi, 18-20 sentyabr. – Bakü: AMEA. – s.210-217.
2. Azərbaycan ədəbiyyatı tarixi (2007). 7 cilddə, IV c. (XIX əsr). − Bakı: Elm. − 504 s.
3. Əkinçi. 1875-1877 (Tam mətni) (2005). − Bakı: Avrasiya Press. – 496 s.
4. Hüseynzadə, Rüfət (2019). Azərbaycan məktəb və pedaqoji fikir tarixi. – Bakı: ADPU nəşriyyatı. – 538 s.
5. İmaməliyeva, Mətanət (2006). "Əkinçi" qəzetində ədəbiyyat məsələləri (metodik vəsait). − Bakı: BSU. − 27 s.
6. Mirəhmədov, Ə. (2005). Birinci Azərbaycan qəzeti. "Əkinçi". 1875-1877 (Tam mətni). − Bakı: Avrasiya Press. − 496 s.

**Məqalə tarixçəsi**
*Daxil olub* *12.06.2025*
*Qəbul edilib* *04.07.2025*
*Nəşrə tövsiyə edib* *Tamilla Vahabova*
*pedaqogika elmləri doktoru, dosent*